DOI: 10.36719/2020/BEK/01/182-186

**Sevinc Usub qızı Hüseynova**
AMEA Hüquq və İnsan Haqları İnstitutu, böyük elmi işçi
sevhuseyn@yahoo.com

# İNSAN ALVERİ CİNAYƏTİNİN OBYEKTİV ƏLAMƏTLƏRƏ GÖRƏ TƏHLİLİ

**Xülasə**

Məqalədə insan alveri cinayətinin obyektiv əlamətlərinin təhlilindən bəhs edilir. Cinayətin düzgün tövsifi, oxşar əməllərdən onun fərqləndirilməsi üçün cinayətkar qəsdlərin obyektinin dəqiq təyin edilməsi mühüm əhəmiyyət kəsb edir. Əməl qanunla qorunan obyektə ziyan yetirdikdə sosial təhlükəli xarakter alır və cinayətə çevrilir. Cinayətin obyekti ictimai təhlükəli əmələ ziyan yetirən və ya belə təhlükə yaradan, lakin bütün hallarda cinayət qanunu ilə qorunan ictimai münasibətlərdir.

Cinayət hüququnda cinayətin obyekti anlayışının böyük əhəmiyyəti vardır. Bu anlayışın aydınlaşdırılması cinayətin sosial və hüquqi mahiyyətini müəyyənləşdirməyə, onun ictimai təhlükəli nəticələrini aşkar etməyə, cinayət hüquq normasının təsir dairəsi, cinayətin tövsif edilməsi və onun oxşar cinayətlərdən fərqləndirilməsi ilə bağlı sualları düzgün cavablandırmağa imkan verir.

***Açar sözlər:*** *insan alveri, cinayət tərkibi, cinayətin obyekti, cinayətin obyektiv cəhəti, alqı-satqı, insanın istismarı, ictimai-təhlükəli əməl, cəza təhdidi*

## Analysis of a person's trade crime on objective grounds

**Summary**

The article deals with the analysis of objective features of the crime of human trafficking. It is important to correctly recommend the crime and accurately identify the object of criminal attacks in order to distinguish it from similar actions. When an action causes damage to an object protected by law, it becomes a socially dangerous and criminal act. The object of the crime is public relations that cause harm or pose a threat to a socially dangerous act, but in all cases are protected by criminal law.

The concept of an object of crime is of great importance in criminal law. The explanation of this concept allows us to determine the socio-legal nature of the crime, identify its socially dangerous consequences, correctly answer questions about the scope of application of the criminal law, the definition of the crime and its difference from similar crimes.

***Key words:*** *trafficking in persons, composition of offenses, object of crime, objectivity of the crime, trading, human exploitation, socially dangerous action, threat of punishment*

## Giriş

İnsan alveri cinayətinin təhlili göstərir ki, belə əməllər surətlə artır və digər təhlükəli cinayətlərlə sıx inteqrasiya edir. Mövcud vəziyyət dövlətlərin bu kriminal fəaliyyət forması ilə mübarizəyə yönələn səylərinin birləşdirilməsini zəruri etmiş, dövlətlər arasında insan alveri ilə mübarizə üzrə əməkdaşlığa yönələn bir sıra beynəlxalq konvensiyalar qəbul edilmişdir. 2000-ci il dekabrın 12-də imzalanmış və 2003-cü il mayın 13-də Azərbaycan Respublikasının Qanununu ilə BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa

qarşı” Konvensiyasının və onu tamamlayan “İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında” Protokolunun, habelə 20 sentyabr 2002-ci ildə qəbul edilən “İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında” Brüssel Bəyannaməsinin müddəaları nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 06 may 2004-cü il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı” təsdiq edilmişdir. “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi həm də Azərbaycan Respublikası Cinayət Məcəlləsində insan alverinə qarşı mübarizə tədbirlərinə dair cinayət hüquq normalarının əlavə edilməsi zərurətini yaratmışdı. Buna görə də, “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklik edilməsi haqqında” 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə İnsan alveri – 144-1-ci maddəsi ilə yanaşı, Məcburi əmək – 144-2 və İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yayma – 316-1-ci maddələr əlavə edilmişdir.

Zəruri təşkilati-hüquqi tədbirlərin görülməsinə baxmayaraq, insan alveri ilə mübarizənin kompleks cinayət hüququ vasitələrlə gücləndirilməsi olduqca aktualdır. Buna görə də insan alverinin sosial-kriminoloji və cinayət hüquqi xarakteristikasının təhlili, respublikada insan alverinin vəziyyəti, dinamikası və təzahürləri sistemli təhlil edilməli, səbəb və şəraiti öyrənilməli, səmərəli profilaktiki tədbirlərin görülməsi üçün elmi nəzəri tədqiqatların aparılması zəruridir. Bu həmçinin Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunmuş 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üçün nəzərdə tutulan Milli Fəaliyyət Planlarının tələblərindən irəli gəlir.

İnsan alveri cinayət tərkibinin hüquqi təhlili, onun oxşar tərkiblərdən fərqləndirilməsi, belə əməllərlə mübarizənin beynəlxalq hüquqi xüsusiyyətləri, milli qanunlarda nəzərə alınması və digər zəruri məsələlər kompleks qaydada tədqiqata cəlb edilməlidir. Bütün bunlar insan alveri ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemlərinin elmi-nəzəri tədqiqinin son dərəcə aktual olduğunu şərtləndirir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 14-cü maddəsinə görə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır (1). Cinayət tərkibi isə qanunla cinayət hesab edilən ictimai-təhlükəli əməli xarakterizə edən obyektiv və subyektiv əlamətlərin məcmusunu təşkil edir. Əgər cinayət anlayışı bütün cinayətlərə aid olan əlamətləri özündə birləşdirirsə, cinayət tərkibi onu müəyyən növlərə bölərək bu əlamətləri differensiallaşdırır. Belə olduqda müstəntiq və ya məhkəmə məsələn, oğurluq, quldurluq və s. cinayət tərkiblərinin əlamətlərini müəyyən edərkən özlərinin bu əməllər barədə fikirlərini deyil, məhz qanunvericinin müəyyən etdiyi əlamətləri əsas götürərək əmələ hüquqi qiymət verirlər. Burada törədilmiş ictimai təhlükəli əməlin düzgün tövsifi, ona düzgün hüquqi qiymətin verilməsi üçün konkret cinayət tərkibinin – cinayətin obyekti, obyektiv cəhəti, subyekti, subyektiv cəhəti kimi dörd elementini xarakterizə edən əlamətlərin müəyyən edilməsi əhəmiyyətli rol oynayır.

Cinayətin düzgün tövsifi, oxşar əməllərdən onun fərqləndirilməsi üçün cinayətkar qəsdlərin obyektinin dəqiq təyin edilməsi mühüm əhəmiyyət kəsb edir. İ.Ağayev düzgün olaraq qeyd edir ki, “cinayət hüququnda cinayətin obyekti anlayışının böyük əhəmiyyəti vardır. Cinayətin obyekti ictimai təhlükəli əmələ ziyan yetirən və ya belə təhlükə yaradan, lakin bütün hallarda cinayət qanunu ilə qorunan ictimai münasibətlərdir. Bu anlayışın aydınlaşdırılması cinayətin sosial və hüquqi mahiyyətini müəyyənləşdirməyə, onun ictimai təhlükəli nəticələrini aşkar etməyə, cinayət hüquq normasının təsir dairəsi, cinayətin tövsif edilməsi və onun oxşar cinayətlərdən fərqləndirilməsi ilə bağlı sualları düzgün cavablandırmağa imkan verir.

Obyekt fəlsəfi kateqoriyadır və subyektin dərketmə fəaliyyətində ona qarşı duran və bu fəaliyyətin üzərinə istiqamətləndiyi ictimai münasibətlər, dəyərlər və sərvətlərdir. Metodoloji planda həm əşyaya, həm də insana obyekt kimi baxıla bilər” (2, 29).

“Obyekt” termini bir neçə mənada işlənir: 1) bizdən kənarda və bizim şüurumuzdan asılı olmayaraq mövcud olan şey, xarici aləmin təzahürü; 2) üzərinə kiminsə fəaliyyətinin, diqqətinin yönəlmiş olduğu hal; 3) müəssisə, idarə, eləcə də hər hansı bir fəaliyyətin baş verdiyi yer (2, 29-30).

Bütün bu mənalarda cinayətin obyekti dedikdə, cinayət hüquq normaları ilə kriminal qəsdlərdən qorunan ictimai münasibətlər, dəyərlər və sərvətlər başa düşülür. Cinayətin obyektinə müəyyən əlamətlər xasdır. Həmin əlamətlər: a) bütün sosial əhəmiyyətli dəyər, maraq və sərvətlərdən cinayətin obyekti kimi qəbul olunanları seçməyə; b) sosial əhəmiyyətli dəyər, maraq və sərvətlərin mahiyyətini açmağa; c) cinayətin obyekti başqa cinayət-hüquqi kateqoriyalardan fərqləndirməyə; ç) cinayətin obyektinə vurulan zərərin xarakterini aydınlaşdırmağa imkan verir. Cinayətin obyekti problemi cinayət hüququ sahəsində ən mübahisəli və mühüm problemlərdən biridir.

XIX əsrin ortalarında cinayətin formal tərifinə əsaslanan və cinayət obyektinin normativ nəzəriyyəsi adlandırılan nəzəriyyə geniş yayılmışdır. Bu nəzəriyyəyə görə, cinayət, hüquq normasının pozulması deməkdir və buna görə də cinayətin obyekti də hüquq normasıdır, yəni cinayət əməlinin qəsd etdiyi ictimai

münasibətlərdir. Bununla bağlı N.S.Taqansev yazır: "Öz-özlüyündə hüquq norması həyat tərəfindən yaradılmış və sonradan müstəqil, mücərrəd mövcudluq qazanmış formuladır. İstənilən hüquq norması, mücərrəd müddəa olaraq qəbul edilməyə, tənqid oluna, tanınmaya bilər; lakin yalnız real həyata malik olan norma pozula bilər. Əgər biz cinayətdə yalnız normaya edilən qəsdi görəriksə və törədilənin hüquqazidliyinə müstəsna əhəmiyyət verəriksə, onda cinayət formal, həyat üçün yararsız bir anlayışa çevrilər" (3, 29-33). Yüz ildən artıq vaxt keçməsinə baxmayaraq, cinayətin obyekti problemi ilə bağlı N.S.Taqantsevin konseptual mövqeyi öz əhəmiyyətini daha çox saxlamış mövqe hesab etmək olar. Beləliklə, cinayətin obyekti – cinayət edən şəxsin qəsd etdiyi və cinayət nəticəsində ziyan vurduğu, yaxud ziyan vurmaq istədiyi ictimai münasibətlər, dəyərlər və sərvətlərdir.

F.Y.Səməndərov yazır: "cinayətin obyekti – cinayət hüquq normaları ilə kriminal qəsdlərdən qorunan ictimai münasibətlərdir" (4, 135). Cinayət Məcəlləsində də cinayətin obyekti olaraq, cinayət qanununun cinayətkar qəsdlərdən qoruduğu ictimai münasibətlər kimi müəyyən olunmuşdur. Bu zaman ictimai münasibətlər dedikdə, "hüquqi və əxlaqi normaların qoruduğu, birgə fəaliyyət və ünsiyyət prosesində insanların arasındakı münasibətlər nəzərdə tutulurdu. Bir çox hallarda, cinayət obyektinin, müəyyən ictimai münasibətlər kimi izah olunması doğru idi. Məsələn, oğurluq, soyğunçuluq və digər əmlak cinayətləri zamanı mülkiyyət münasibətlərinin cinayət obyekti hesab edilməsi buna nümunə ola bilər. Bu halda doğurdan da, bilavasitə oğurlanmış əmlak cinayət obyekti olmur (ola bilsin, heç əmlaka ziyan vurulmayıb), məhz mülkiyyət hüququndan irəli gələn münasibətlər, yəni əmlaka sahiblik, istifadə və sərəncam hüququ cinayətin obyekti olur" (5, 173). Bir sözlə, cinayətin obyektinin əhəmiyyəti həddən artıq böyükdür. Məhz cinayətin obyekti konkret cinayətin məzmununu açmağa, onun ictimai təhlükəliliyinin xarakterini aydınlaşdırmağa imkan verir. Bundan əlavə, cinayətin obyektinin düzgün müəyyənləşdirilməsi ilə cinayətin özü də düzgün tövsif edilir. Bütün bunlar son nəticədə təqsirli şəxsə onun törətmiş olduğu cinayətə görə düzgün və ədalətli cəzanın təyin edilməsi üçün olduqca vacib şərtlərdən sayılır.

İnsan alveri cinayətinin cins obyekti qismində şəxsiyyətin təhlükəsizliyini təmin edən ictimai münasibətlər çıxış edir. Bu cinayətin növ obyekti şəxsiyyətin azadlığı, şərəf və ləyaqətinin müdafiəsinə yönələn ictimai münasibətlərdir. İnsan alveri cinayətinin bilavasitə obyekti – şəxsiyyətin öz fəaliyyətini, hərəkətlərini sərbəst və azad surətdə müəyyən etməsinə istiqamətlənən ictimai münasibətlərin məcmusu kimi, insanın şəxsi azadlığı çıxış edir. Azadlıq bu halda məhdud mənada başa düşülür, yəni azadlıq dedikdə, fiziki yerdəyişmə imkanı, özünün yaşayış yerini, olmaq istədiyi yeri sərbəst və müstəqil şəkildə müəyyən etmək və seçmək imkanı nəzərdə tutulur.

Şərh edilən cinayətin obyektiv cəhəti zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla, şəxsin istismar edilməsi məqsədi ilə: 1) cəlb edilməsini; 2) əldə edilməsini; 3) saxlanılmasını; 4) gizlədilməsini; 5) daşınmasını; 6) verilməsini; 7) qəbul edilməsini nəzərdə tutur.

Şərh olunan cinayətin obyektiv cəhətinin zəruri əlaməti kimi onun törədilmə üsulları dispozisiyada göstərilmişdir. Həmin üsullara aiddir: zor tətbiq etmə hədəsi; zor tətbiq etmə; hədə-qorxu; digər məcburetmə vasitələri; oğurlama; dələduzluq; aldatma; təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etmə; digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər vermə və ya alma (6, 496-497).

Beləliklə, Cinayətin obyekti cinayətlə ziyan yetirilən, yaxud mühüm ziyan yetirilə bilən, cinayət qanunu ilə qorunan ictimai münasibətlərdir. Cinayətin obyektiv cəhəti müəyyən zamanda və məkanda, müəyyən şəraitdə baş verən, mövcud ictimai münasibətlərə ziyan vuran ictimai təhlükəli qəsdin zahiri cəhətidir. Cinayətin obyektiv cəhəti cinayəti konkretləşdirən əlamətlərdən biridir. Obyektiv cəhət subyektin ictimai təhlükəli əməlini, yetirdiyi zərəri xarakterizə edir.

Cinayətin obyektiv cəhətini həm də ictimai təhlükəli nəticə, əməllə nəticə arasında səbəbli əlaqə, zaman, məkan, cinayətin baş verdiyi şərait, habelə cinayətin edilmə üsulu əhatə edir (4, 135-155).

Cinayət tərkibinin obyektiv cəhətini təhlil edərkən ictimai təhlükəli nəticənin də müəyyən olunması zəruridir. F.Y.Səməndərov yazır ki, obyektiv cəhət əməlin ictimai münasibətlərə ziyan yetirən xüsusiyyətidir. Bu əlamət cinayətin sosial mahiyyətini ifadə edir, bu və ya başqa əməlin nə üçün cinayət hesab edilməsi sualına cavab verir. İctimai təhlükəlilik obyektiv xüsusiyyətdir, qanunvericinin şüurundan və iradəsindən asılı olmayaraq cəmiyyətin həyatına ziyan yetirir, hüquqi şüurda dərk edilir və dəyərləndirilir. Məhz bu əlamətə əsasən qanunverici orqan əməlin cinayətlər qrupuna daxil edilməsi ilə bağlı qərar qəbul edir (7, 228).

A.V.Naumov qeyd edir ki, "Kriminal nəticə – cinayət hüquq normasında cinayətin obyektiv cəhətinin əlaməti kimi nəzərdə tutulan, cinayət qanunu ilə qorunan obyektə yetirilən mühüm ziyandır" (5, 183).

Əməlin ictimai təhlükəliliyi əlaməti müəyyən edilərkən əməlin ziyan yetirdiyi obyekt araşdırılır. Lakin əməlin ziyan yetirdiyi obyekti müəyyən etməklə onun ictimai təhlükəliliyini açmaq, xarakterizə etmək kifayət deyildir. İctimai təhlükəlilik ilk növbədə törədilən əməlin yetirdiyi ziyanla müəyyən edilir. Əməlin ictimai təhlükəlilik dərəcəsi yetirilən ziyanın dərəcəsindən, qəsdin xüsusiyyətindən (cinayətin başa çatmasından, cinayətin iştirakçılıqla edilməsindən və s.) asılıdır (7, 228).

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 144-1-ci maddə daxil edilməmişdən əvvəl qüvvədə olan CM-də yetkinlik yaşına çatmayanların alqı-satqısı CM-nin 173-cü maddəsində nəzərdə tutulmuşdur. Hazırda qüvvədə olan qanunvericilikdə belə bir məhdudiyyət nəzərdə tutulmur və bu maddə məcəllədən çıxarılmışdır.

İnsan alveri – alternativ hərəkətlərdən ibarət olan tərkibdir və bu hərəkətlərə – alqı-satqı, cəlb etmə, əldə etmə, saxlama, daşıma, verilmə, gizlədilmə, və ya qəbul edilmə daxildir. Qeyd etmək lazımdır ki, cinayət formal tərkiblidir, yəni cinayət ictimai təhlükəli hərəkət törədildiyi anda başa çatmış sayılır. Bu halda maddənin dispozisiyasında qeyd olunan ictimai təhlükəli hərəkətlərdən hər hansı birinin törədilməsi kifayət edir (8, 23-25). Maddənin dispozisiyasında göstərilən hərəkətlərdən birincisi insanın alqı-satqısıdır. Cinayət qanunu ilə digər hüquq sahəsinə aid olan termin və anlayışdan istifadə olunduğu üçün hesab edirik ki, "alqı-satqı" definisiyasının mahiyyət və məzmununun aydınlaşdırılması üçün Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müraciət etmək zəruridir. Alqı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür (AR MM-nin 567-ci maddəsi). Mülki qanunvericiliyə görə mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır. Müqavilə hüquqyaradıcı faktdır, tərəflər hüquqi vasitələrlə özləri üçün hüquq və vəzifələr yaradırlar. Müqavilənin məzmunu-tərəflərin konkret hüquq və vəzifələrini müəyyən edən, onun yerinə yetirilməsini müəyyən olunmuş qaydaya əsasən nizamlayan şərtlərin ümumi məcmusudur. Müqavilə tərəflərdən birinin oferta (müqavilə bağlamaq təklifi) göndərilməsi və digər tərəfin onu aksept etməsi (təklifin qəbulu) vasitəsilə bağlanır (9, 286-305).

Alqı-satqı müqaviləsi aşağıdakı əlamətlərlə xarakterizə olunur:

Alqı-satqı qarşılıqlı (ikitərəfli) və əvəzli müqavilədir. Müqavilənin iştirakçı tərəfləri hüquq və vəzifələrə və müqavilə öhdəliyinin yerinə yetirilməsinə görə qarşılıqlı həvalə etmə, imkan vermə hüququna malikdirlər. Əgər alqı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski müqaviləyə uyğun olaraq satıcının əşyanı alıcıya vermək vəzifəsini icra etmiş sayıldığı andan alıcıya keçir (AR MM-nin 571.1-ci maddəsi).

Müqavilədə əsas şərt – predmetin – əşyanın göstərilməsidir. Müvafiq olaraq nəzərdən keçirdiyimiz əməldə müqavilə predmeti insandır. Bu da insanın əşyaya çevrilməsi deməkdir. İnsan satıldığı andan satıcının onun üzərində mülkiyyət hüququ yaranır və bu mülkiyyət hüququ şəxs satıldığı təqdirdə alıcıya keçir. Bu proses «şəxsiyyətin əşyalaşması, əmtəəyə çevrilməsi» adlandırılır (10, 11). Müqavilənin bağlanması və icrası həyata keçirilmə vaxtına görə üst-üstə düşə və ya fərqlənə bilər. Bu da o deməkdir ki, alqı-satqının baş tutması, müqavilənin bağlanması və icrası- əmlakın, yəni şəxsin verilməsi kimi başa düşülür. Cinayət hüquq mənasında bununla biz cinayətin başa çatma anını müəyyən etmiş oluruq. Alqı-satqı konsensual müqavilədir. Çünki tərəflər bütün əhəmiyyət kəsb edən məsələ və şərtlər barədə razılığa gəldiyi andan bağlanmış hesab olunur. Belə müqavilələr çox vaxt ideal olaraq şifahi bağlanır, çünki insan alqı-satqısı müqavilənin bağlanmasının özü qanunsuzdur, ictimai-təhlükəlidir və cinayət kimi qiymətləndirilməlidir. Məsələn, T.Dolqolenko qeyd etdiyi kimi, hələ anadan olmamış körpə barədə hamilə qadınla alqı-satqı müqaviləsinin bağlanması sui-qəsd deyil, başa çatmış cinayət faktı kimi qiymətləndirilməlidir (8, 23-25).

Şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar edilməsi məqsədilə digər şəxslərə verilməsi üçün cəlb edilməsi dedikdə, şəxsin insan alverində tərəf kimi çıxış edən hər hansı şəxsə, yaxud vasitəçi və ya istənilən digər şəxsə verilməsini təmin edərək hazırlıq hərəkətləri başa düşülməlidir. Həmin hərəkətlərə insan alveri cinayətindən zərərçəkmiş şəxslərin siyahıya alınması, bir yerə toplanması və s. aiddir. Belə hərəkətlər istənilən üsulla: aldatmaqla, yalan, doğru vəd verməklə, hədə-qorxu gəlməklə və s. həyata keçirilə bilər.

Cəlbetmə zorakı və ya qeyri-zorakı üsullardan istifadə etməklə törədilə bilər. Cəlbetmənin zorakı üsullarına zor tətbiq etmək və ya zor tətbiq etmək hədəsi ilə törədilmə aiddir ki, bu da cinayətin tövsifedici əlamətidir. Bu tövsifedici əlamət təkcə cəlb etməyə deyil, həm də normanın dispozisiyasında göstərilən digər əməllərə da aiddir. Aldatma, dələduzluq, etibardan sui-istifadə CM-nin 144-1.2.6-cı maddəsi ilə tövsifedici əlamətlərə aid edilən təqsirli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilmə, mahiyyət etibarilə qeyri-zorakı üsullara törədilən elementlərdir.

Şərh olunan maddənin dispozisiyasında sadalanan əməllərin nəticəsi olaraq insan alveri cinayətindən

zərərçəkmiş şəxsin fahişəliklə məşğul olub-olmamasının, cinsi istismara, yaxud işgəncəyə və digər qeyri-insani rəftara məruz qalıb-qalmamasının, cinayətkar fəaliyyətə cəlb edilib-edilməməsinin, köləliyə yönəldilib-yönəldilməməsinin təqsirli şəxsin əməlinin CM-nin 144-1-ci maddəsi ilə tövsif edilməsinə təsiri yoxdur. Bir sıra hallarda insan alveri adamların qaçaqmalçılığı və ya qanunsuz miqrasiyası ilə eyniləşdirilir. Bu terminlərin bəzi sinonimliyi mövcud olsa da, hüquqi nöqteyi-nəzərdən bu anlayışlar müxtəlif mahiyyət və məzmuna malikdirlər:

1) "miqrantların qaçaqmalçılığı" kimi insan alveri də çox zaman dövlət sərhədlərindən yerdəyişmə ilə bağlıdır, lakin «miqrantların qaçaqmalçılığı» həmişə dövlət sərhədini keçməklə, dövlət sərhədlərindən yerdəyişmə ilə bağlıdır. İnsan alveri isə dövlət sərhədlərini aşmadan da, ölkə ərazisi daxilində həyata keçirilə bilər.

2) sərhəddən keçirilərək daşınan şəxsin niyyəti bu ölkəyə qeyri-leqal gəlməkdir. İnsan alverində isə bu ölkədə qanunsuz əsaslarda saxlama da mümkündür.

3) "miqrantların qaçaqmalçılığı" miqrantın təyinat məntəqəsinə gəldikdən sonra cinayət başa çatmış hesab olunur, insan alveri isə sonradan istifadə və ya satma niyyəti ilə insanın ələ keçirildiyi andan başa çatır.

Baş verən nəticələr baxımından da əhəmiyyətli fərqlər mövcuddur: qaçaqmalçılıq zamanı miqrantlar hüquq pozucusu, bəzən isə cinayətkar hesab olunaraq ölkədən deportasiya olunurlar. İnsan alverində isə bu şəxslər qurbanlar kateqoriyasına aid edilir və onlar üçün psixi və ya fiziki sağlamlıqlarının bərpası, şahidlərin müdafiəsi üzrə müxtəlif tədbirlər və digər sosial təminatlar nəzərdə tutulmuşdur.

## Nəticə

Təhlillər təsdiq edir ki, görülmüş tədbirlər nəticəsində son illər Azərbaycanda insan alveri ilə mübarizə sahəsində mükəmməl mexanizmlər fəaliyyətə başlamışdır. İnsan alveri – transmilli mütəşəkkil xarakter daşıyan cinayətlərdəndir. İnsan alveri ilə bağlı kriminal fəaliyyət cinayətlərin müəyyən kompleksi ilə müşayiət olunan çoxaspektli və mürəkkəb sosial-hüquqi hadisədir. Bu cinayətlər kompleksinə bilavasitə insan alveri, məcburi əməkdən istifadə, seksual istismar, fahişəliyə cəlb etmə və məcbur etmə, adam oğurluğu və adamları qanunsuz saxlama, qanunsuz azadlıqdan məhrum etmə, dövlət sərhədlərini qanunsuz keçmə, xarici ölkələrdə qanunsuz saxlanılma sənədlərin saxtalaşdırılması və s. əməllərlə, çox vaxt məcmu şəklində, mütəşəkkil qaydada törədilir.

Cinayət hüquq nəzəriyyəsində üstün olan mövqeyə əsasən cinayət məsuliyyətinin hüquqi əsasını cinayət tərkibi, maddi əsasını isə cinayət təşkil edir. Cinayət tərkibinin əsas və əlavə əlamətləri fərqləndirilir. Müvafiq cinayətin yalnız spesifik cəhətlərini özündə əks etdirən cinayət tərkibi obyektiv və subyektiv əlamətlərdən ibarət olur. Cinayət hüquq nəzəriyyəsində obyektiv əlamətlərə cinayətin obyektinin və obyektiv cəhətinin, subyektiv əlamətlərə isə subyekt və subyektiv cəhətinin aid edilməsi qəbul olunmuşdur.

İnsan alverinin obyekti qanunla müəyyən edilən, qorunan və təmin edilən azadlıq, şəxsi təhlükəsizlik və insanın marağı, həmçinin həyatı, sağlamlığı insanın şərəf və ləyaqətini qoruyan ictimai münasibətlər hesab olunmalıdır. Bu cinayətlərin obyektiv cəhətini, yəni "qanunla qorunan ictimai münasibətlərə ziyan yetirən, yaxud da ziyan yetirmək təhlükəsi yaradan ictimai-təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) zahiri tərəfini" bir qrup əlamətlər xarakterizə edir ki, onlara aşağıdakıları aid etmək olar: 1) İctimai təhlükəli əməl (hərəkət və ya hərəkətsizlik); 2) ictimai təhlükəli nəticə (cinayətkar nəticə); 3) ictimai təhlükəli hərəkətlə ictimai təhlükəli nəticə arasındakı səbəb əlaqəsi; 4) cinayətin törədilmə üsulları, alət və vasitələri, yeri, vaxtı və şəraiti.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Digesta, 2018, 472 s.
2. Ağayev İ.B. Cinayət tərkibi. Bakı: Təhsil, 2005, 496 s.
3. Таганцев Н.С. Русское уголовное право. Лекции. Часть Общая. В 2 т., М.: Наука, 1994. – 380 с.
4. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı: "Hüquq Yayın Evi" nəşriyyatı, 2018, 724 s.
5. Naumov A.V. Rusiya cinayət hüququ. Ümumi hissə. Mühazirə kursu. Azərbaycan dilində. Bakı: Qanun, 1998, 640 s.
6. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. I hissə / hüquq elmləri doktoru, professor Firudin Yusif oğlu Səməndərovun redaktəsi ilə. Bakı, 2018, 704 s.
7. Səməndərov F.Y. Hüquqi şüur və cinayət hüquq yaradıcılığı. Bakı: Qanun, 1996, 283 s.
8. Долголенко Т. Уголовная ответственность за торговлю людьми / Т.Долголенко // Уголовное право. 2004. - №2. - С. 23-25
9. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı "Hüquq Yayın Evi", 2019, 906 s.
10. Стокер С. Торговля людьми как одна из форм организованной преступности // Торговля людьми. Социокриминологический анализ. Под общей редакцией Е.В.Тюрюкановой и Л.Д.Ерохиной. М.: Academia, 2002. 224 с.